# "DOSTUN YOXDUR AXTAR, TAPDIN QORU!"

## *Vahid Əkbəroğlunun gənclərin masaüstü kitabı olmağa layiq "Hikmətli söz inciləri"ni oxuyarkən...*



Bu günlərdə çapdan çıxmış "Hikmətli söz inciləri" kitabının müəllifi Vahid Əkbər oğlu Əliyevlə mən 1969-1970-ci illərdə Azərbaycan Dövlət Universitetinə (indiki BDU) birgə qəbul olunmuşuq. Elə həmin günlərdən bizim tanışlığımız həqiqi dostluğa və qardaşlığa çevrilib.

Vahid Əliyev elə o zamanlarda da son dərəcə səmimiliyi, güclü yumor qabiliyyəti, məlahətli səsi ilə əsil istedad idi. Təhsil aldığımız illərdə bərabər imtahana hazırlaşar, gəzib-dolanar, yeyib-içər, əylənərdik... Olan pul-paramızı da bir yerdə xərcləyərdik. Vahid Bakıda, mən isə rayonda yaşasam da, aramızdakı yarım əsrlik səmimi dostluq münasibəti indi də davam edir.

**HÖRMƏTLİ DOSTUM!** Sənin hikmət antologiyası səciyyəli kitabını aldım və onu həyatımda ən qiymətli hədiyyə kimi qəbul edirəm. İnanıram ki, topluya daxil edilmiş çoxsaylı örnəklər, öyüd-nəsihətlər, ibrətamiz kəlamlar peşəsindən asılı olmayaraq, bütün oxucuların zövqünü oxşayacaq, həyatın qaranlıq yollarında işıq salacaq. Beləliklə, "Hikmətli söz inciləri" hər kəsin, xüsusilə də gənclərin stolüstü kitabına çevriləcəkdir.

Minnətdarlıq olaraq bu kiçik şeiri sənə və yaradıcılığına ithaf edirəm:




### QARDAŞ QIYAR QARDAŞA...

Göndərdiyin hədiyyə,
Çatdı öz ünvününa.
Əhsən sənin zövqünə,
Əhsən istedadına.

Nadir güllər dərmisən,
Hamısı da təzə-tər...
Sən bir çələng hörmüsən,
Bar dolu bağa bənzər.

Hər ağacın öz adı,
Hər meyvənin öz dadı,
Nə axtarsan tapılar...
Bu bağın qapıları,
Dost üzünə açılar!

Mən də açıq qapıdan,
İçəri addım atdım...
Könlüm nə istəyirsə,
Onu bu bağda tapdım.

"Sağ ol" dedim bağbana,
Dedim, Vahid, min yaşa!



Belə bir bağ-baxçanı,
Qardaş verər qardaşa!

* * *

Baxma ki, sən Vahidsən,
Bizlərdən birimizsən.
Ya Asifsən, ya Ayaz,
Ya da elə Tofiqsən.
Təkdə Cəmsən, Cəmdə Tək -
Vahidsən ki, Vahidsən!..

***Tofiq NOVRUZOV,***
***Naxçıvan MR, Kəngərli rayonu, Xok kəndi***